SİYASƏT

AŞPA və ATƏT PA məruzəçiləri Fəridlə Ülviyyəni də yada saldılar

Oktyabr 30, 2026



Ülviyyə Əli və Fərid Mehralızadə

30 oktyabr – Siyasi Məhbuslar Günü ərəfəsində Avropanın iki qurumunun təmsilçiləri dünyanı siyasi məhbusları unutmamağa çağırıblar. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) siyasi məhbuslar üzrə məruzəçisi **Azadə Rojhan** və onun ATƏT Parlament Assambleyasından olan həmkarı **Stiv Koen** xüsusi bəyanatla çıxış ediblər. Onlar Rusiya, Belarus, Gürcüstan, Azərbaycan və Türkiyədə "haqsız şəkildə azadlıqdan məhrum edilmiş" 13 nəfərin adını çəkiblər. Onların sırasında AzadlıqRadiosunun həbsdə olan əməkdaşı **Fərid Mehralızadə** və "Amerikanın Səsi"nin keçmiş əməkdaşı **Ülviyyə Əli**nin də adları var.

Bəyanatda bildirilir ki, Azərbaycanda Anar Məmmədli, Əli Kərimli, Ülvi Həsənli, Fərid Mehralızadə və Ülviyyə Əlinin işləri ölkədə ifadə azadlığının, müstəqil ictimai və siyasi fəaliyyətin nə dərəcədə məhdudlaşdırıldığını göstərir.

Təmsilçilər hər bir məhbusun azadlığa buraxılmasını alqışladıqlarını, ancaq özbaşına həbslərin siyasi və ya iqtisadi güzəştlər əldə etmək vasitəsinə çevrilməməli olduğunu bildiriblər: **"Bu cür hallar hakimiyyət orqanları və məsuliyyət daşıyan şəxslər üçün utancvericidir. Ədalətsiz yerə həbs edilmiş insanların azadlığa buraxılması alver predmeti deyil, ...bir öhdəlikdir".**

F.Mehralızadə və **Ü.Həsənli** ötən ilin iyununda "AbzasMedia işi" çərçivəsində bir sıra iqtisadi ittihamlarla 9 il həbsə məhkum ediliblər.

Hazırda məhkəmə istintaqı davam edən **Ü.Əli** də qaçaqmalçılıqda ittiham olunur. Jurnalistlər ittihamları qəbul etmir və peşə fəaliyyətlərinə görə cəzalandırıldıqlarını bildirirlər..



Hüquq müdafiəçisi **A.Məmmədli** qaçaqmalçılıqda ittiham olunaraq 13 il həbs cəzası alıb; o özü isə bu ittihamı rədd edir.

Müxalifətdə olan AXCP sədri **Ə.Kərimli** 2025-ci il noyabrın 29-dan bəri həbsdədir. Dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönəlmiş hərəkətlərdə ittiham olunan AXCP sədri bu iddianı qəbul etmir və həbsini siyasi sifariş adlandırır.

2023-cü ilin noyabrından başlayaraq Azərbaycanda qruplar halında 30-dan çox jurnalist və ictimai fəal qaçaqmalçılıq ittihamı ilə həbs olunub.

Yerli hüquq müdafiə təşkilatlarının hazırladığı siyahılara əsasən, hazırda Azərbaycan həbsxanalarında 328 siyasi məhbus var.

Hökumət təmsilçiləri isə, bir qayda olaraq, ölkədə heç kimin peşə fəaliyyətinə və ya siyasi baxışlarına görə həbs edilmədiyini vurğulayırlar. Onlar iddia edirlər ki, sözügedən siyahılarda adları keçən şəxslər törətdikləri konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb olunublar. Buna baxmayaraq, beynəlxalq insan haqları təşkilatları hökuməti haqsız yerə tutulanları dərhal azad etməyə çağırır.

Buna da bax:

Fransalı azadlığa çıxdı, 'siyasi məhbuslar' əfv edilmədi

Həbsdə olan müəllim: 'Heç nəyi araşdırmayacaqsınızsa, belə məhkəməyə nə ehtiyac var?!'

Anar Məmmədli: 'Hökm də çıxıb, kompüterimi niyə qaytarmırlar?'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur